**Aqilə Samitovna İSMAYILOVA**
Qərbi Kaspi Universiteti,
Psixologiya və Sosial iş kafedrasının magistrantı
E-mail: agilaismayilova@gmail.com

# YENİYETMƏLIK YAŞ DÖVRÜNÜN XÜSUSİYYƏTLƏRİNİN SOSİAL-PSİXOLOJİ SƏCİYYƏSİ

**Xülasə**

İnsan həyatı müəyyən yaş dövrlərindən ibarətdir. Bu yaş dövrlərindən biri də yeniyetməlik dövrüdür. Yeniyetmə yaş dövrü öz xüsusiyyətlərinə görə fərqlənir. İnsanların hər biri bu dövrü özünəməxsus şəkildə fərqli vəziyyətlərlə başa vurur. Bu məqalədə yeniyetmə yaş dövrünün nə olduğunu, necə təzahür etdiyini və insanın cəmiyyətdə şəxsiyyət kimi formalaşmaqda necə təsir etdiyini müzakirə edəcəyik. Həmçinin, yeniyetmə yaş dövrünün davranış xüsusiyyətlərini və ətraf mühitin onlara təsir mövzusuna da toxunacağıq. Bunu qeyd etmək olar ki, yeniyetmə yaş dövrü insan həyatının ən çətin və sancılı keçən illərini əhatə edir. Bu yaş dövrü hər zaman psixoloqlar tərəfindən öyrənilən dövrdür. Bu araşdırmalar nəticəsində yeniyetmələrin həm fiziki, həm də psixoloji dəyişiklikərini daha dərindən bilməyimiz onların həmin dövrü daha asanlıqla başa vura bilmələrinə kömək edə bilər.

Bu məqalədə yeniyetməlik yaş dövrünün xüsusiyyətlərinin sosial-psixoloji səciyyəsini araşdıracayıq.

**Açar sözlər*:*** yeniyetmə yaş dövrü, müstəqillik, böhran, cinsi yetişkənlik.

**UOT:** 159.9
**DOİ:** https://doi.org/ 10.54414/ODXW2924

**Giriş**

Yeniyetməlik dövrü 11-12 yaşdan 14-15 yaşa qədər davam edən bir mərhələdir və bu dövr əsasən orta məktəbin beşinci və səkkizinci sinifləri ilə əlaqələndirilir. Lakin bu dövrün başlanğıcı və sonu müəyyən bir yaşla sərhədlənə bilməz, çünki fərdi və ətraf mühit amilləri bu dövrün vaxtını irəlilədə və ya gecikdirə bilər. Yeniyetməlik dövrü, şəxsiyyətin psixoloji inkişafı və müvafiq pedaqoji yanaşmaların tələbləri baxımından xüsusi əhəmiyyət kəsb edir.

Yeniyetməlik yaş dövrü insan inkişafında kritik dövr kimi adlanır. Bu yaş dövrü insan həyatında öz fərqliliyi ilə seçilir. Yeniyetmələr özünü tanımaq, emosional güclərini artırmaq və ətrafdakı insanlarla əlaqələr qurmaq daha çox can atırlar. Bu dövrün əsası psixoloji, fiziki və sosial dəyişiklərin olmağıdır. Bu dəyişiklər eyni vaxtda depressiya, narahatlıq və başqa psixoloji problemlərin olmağına gətirib çıxarır. Ümumilikdə yeniyetmə yaş dövrünün araşdırılması onların həyatında baş verən çətinliklərin azaldılmasına kömək edir.

Yeniyetməlik yaş dövrünü illər üzrə hansı yaş aralıqlarını əhatə etdiyi məsələsi nəzərdən keçirilmiş, araşdırılmışdır. İndiki dövrümüzdə yaş dövr aralıqları hər nəzəriyyədə fərqli əks olunur.

**Əsas hissə**

Yeniyetməlik yaş dövrünü böhran, çətin dövr olaraq da adlandırırlar. Bu problem haqqında müxtəlif alimlər, psixoloqlar tədqiqat aparmışlar. Yeniyetməlik dövrü, uşağın yeni sosial və təhsil mühitinə daxil olduğu, daha mürəkkəb dərs proqramları ilə qarşılaşdığı və müxtəlif qayda-qanunlara riayət etməyə məcbur olduğu bir mərhələdir. Bu dövrdə yeniyetmələr həmçinin öz şəxsiyyətlərini formalaşdırır və sosial rola uyğunlaşmaq üçün müxtəlif çətinliklərlə üzləşirlər. Bundan əlavə onlar ətraflarında olan şəxslərlə yəni, dostları, valideynləri və müəllimləri ilə düzgün əlaqə qurmağı da bilməlidirlər. Yeniyetmələrin əsas xüsusiyyətlərindən biri də odur ki, müstəqil olmağa, öz arzuladıqları, niyyətində olduğu həyatı yaşamaqdır. Bu tərzdə olan istəklər onların ətraf mühitləriylə müəyyən qədər konfliktlərin yaranmasına səbəb olur. Bunu da bil-

dirmək lazımdır ki, bioloji və psixoloji dəyişikliklər qabarıq şəkildə özünü göstərə bilir. İnsan bədəninin xarici və daxili dəyişiklikləri bioloji formada olan dəyişiklikləri əks etdirir.

XX əsrin 20-ci illərində yeniyetməlik dövrünün bioloji amillər, xüsusilə cinsi yetişkənliklə əlaqələndirilməsi barədə nəzəriyyələr yaranmışdır. Bu sahədə aparıcı fikirlərə sahib olan amerikan psixoloqu Stenli Xoll və avstriyalı psixiatr Ziqmund Freyd, yeniyetmənin inkişafını əsasən bioloji faktorlara, o cümlədən cinsi yetişkənliyin meydana çıxmasına əsaslanaraq izah etmişlər.

Stenli Xoll yeniyetməlik yaş dövrünü tədqiq edən şəxslərdən biri olmuşdur. Onun fikrincə bu yaş dövrü həvəs, çaşqınlıq, təzad özünü göstərir. Belə bir fikir də irəli sürmüşdü ki, yeniyetməlik yaş dövrü insanın "fərdilik hissi"əldə etdiyi özünüdərk böhranıdır. O, yeniyetməliyi bioloji determinizmə əsaslandırmışdır və bu halın təbii olaraq hər kəsin yaşadığı bir mərhələ olduğunu qeyd etmişdir. Bu yaş böhranı digər yaş böhranlarından əhəmiyyətli şəkildə fərqlənir. Təkcə psixoloji, bioloji deyil, eyni zamanda sosial və mədəni inkişaf baxımından ziddiyətli hesab etmişdir.

Bir digər tədqiqatçılardan olan E.Şprangerə görə yeniyetməlik yaş dövrü qızlar və oğlanlarda fərqlidir. Yeniyetməlik yaş dövrü oğlanlarda 14-21 yaş, qızlarda isə 13-19 yaş aralığı olduğunu bildirmişdir, Şpranger araşdırmalarında yeniyetmələrin özünüdərkinin, dəyər oriyentasiyalarının, dünya görüşünün sistemli şəkildə öyrənilməsini tədqiq etmişdir.

Yeniyetməlik dövrü haqqında öz töhvəsini vermiş tədqiqatçılardan olan Erik Eriksonun sosial-emosional inkişaf nəzəriyyəsində bu dövrü identiklik, rolların qarşılıqlı mərhələsi kimi adlandırır. O, bunu da qeyd etmişdir ki, yeniyetmələr özlərini şəxsiyyət kimi formalaşdırmağa çalışır. Bir çox hallarda sosial rolları ilə bağlı qeyri-müəyyənlik hissi yaşayırlar.

Yeniyetmə yaş dövrünün araşdıranlardan biri də Ş.Büler olmuşdur. Onun fikrinə görə yeniyetməlik dövrü cinsi yetişkənkinliyi əsasında müəyyən olunur. Ş.Büler yetkinlik dövrünə qədər olan dövrü insanın uşaqlığı, yetkinlik dövrünün son mərhələsini isə gənclik dövrü adlandırır.

Yeniyetməlik dövründə boy və çəki artımında əhəmiyyətli dəyişikliklər müşahidə olunur. Bu dövrdə oğlanlarda boy artımı əsasən 13-14 yaş arasında ən yüksək həddə çatır, qızlarda isə boy artımı daha erkən başlayır və daha tez azalır. Qızlarda boy artımı ilk illərdə daha sürətli olsa da, sonrakı dövrlərdə yavaşlayır. Çəki artımı həm oğlanlarda, həm də qızlarda qeyri-bərabər şəkildə baş verir. Oğlanlarda çəki artımı 13 yaşında azalsa da, sonrakı illərdə əhəmiyyətli şəkildə artır. Qızlarda isə çəkinin artımı daha stabil olub cinsi yetişmə ilə əlaqədar dəyişiklikləri əks etdirir.

Bu dövrdə əzələ kütləsi və gücü artır, fiziki imkanlar genişlənir, yeniyetmələr özlərini güclü və hər şeyə qadir hiss edirlər. Cinsi yetişmə həm fizioloji, həm də psixoloji dəyişikliklərlə müşayiət olunur, yeniyetmələrin görünüşü böyüklərə daha çox bənzəyir.

Bir çox araşdırmalar nəticəsində tədqiqatçılar sübut etdilər ki, şəxsiyyətin inkişafı təkcə bioloji yox həm də sosioloji, psixoloji amillərdən asılıdır. Bununla bağlı Marqaret Mid insan şəxiyyətinin formalaşması ilə bağlı adada yaşayan yenuyetmələrlə tədqiqat aparmışdır. Nəticədə qız və oğlanlarda baş verən böhranların səbəbi təkcə bioloji deyil, sosioloji amillərlə şərtlənir.Tədqiqatın digər nəticəsi olaraq Mid onu da qeyd etmişdir ki, adadakı uşaqların yeniyetməlik dövrünə keçidi ziddiyyətsiz baş verir. Həm də vurğulayırdı ki, bu dövr yeniyetmələrin inkişafında ən sərbəst dövrdür.

Yeniyetməlik dövrü, sosial inkişafın dinamik olduğu bir mərhələdir. Bu dövrdə yeniyetmələr, ailə, dostlar və cəmiyyətlə olan münasibətlərini daha da dərinləşdirirlər.

Dostluq münasibətləri: Yeniyetmələrin dostluq münasibətləri, bu dövrdə çox əhəmiyyətli bir yer tutur. Gənclər, dostlarını daha çox özlərinə yaxın hiss edir, emosional dəstək axtarırlar. Dostluq, şəxsiyyətin formalaşmasında, özünü ifadə etmədə və sosial bacarıqların inkişafında mühüm rol oynayır. Müsbət dostluq münasibətləri, yeniyetmələrin özünüqiymətləndirməsini artırır, stressi azaldır və onların sosial bacarıqlarını inkişaf etdirir. Ancaq bəzən dost çevrəsi, riskli davranışların təsirini də artıra bilər.

Sosial qruplar və kimlik axtarışı**:** Yeniyetmələr, müxtəlif sosial qruplara daxil olmağa çalışır. Bu qruplar, mədəni, dini, idman və digər maraq sahələri əsasında formalaşa bilər. Yeniyetmələr, bu qruplara daxil olmaqla, öz kimliklərini daha aydın şəkildə müəyyənləşdirirlər. Ancaq bu, bəzən konfliktlərə və ya ayrılıqlara da səbəb ola

bilər, xüsusilə fərqli dəyərlərə sahib olan qruplar arasında olur [5, s.42].

Sosial qarşılıqlı təsir nəticəsində yeniyetmələrin bilik və bacarıqları formalaşır. Bu yaş dövrü sosial təsirlərlə sıx əlaqədə olan dövrdür. Yeniyetmə yaş dövrünün əsas xüsusiyyətlərindəm biri də dünyaya fərqli baxış bucaqlarından yanaşmağı öyrənirlər və mənəvi dəyərlər sistemi yaratmağa çalışırlar.

Yeniyetməlik dövrü şəxsiyyətin formalaşmasında əsaslı dəyişikliklərin baş verdiyi mühüm bir mərhələdir. Bu dövrdə fərdin sosial və psixoloji inkişafında yeni istiqamətlər yaranır. Görkəmli psixoloq K. Levinin nəzəriyyəsinə əsasən, yeniyetməlik yaşında fərdin həyati aləmi genişlənir, ünsiyyət sahəsi, qrup mənsubiyyəti və sosial qarşılıqlı əlaqələrin strukturu daha kompleks xarakter alır. Yeniyetmələr üçün ünsiyyət yalnız fərdi ehtiyacın təmin olunması vasitəsi deyil, həm də şəxsiyyətin inkişafını şərtləndirən sosial-psixoloji bir fəaliyyət növüdür.

Bu mərhələdə yoldaşları ilə qurulan qarşılıqlı əlaqələr və həmyaşıd kollektivinə qoşulmaq arzusu xüsusilə nəzərəçarpan olur. Yeniyetmələr ünsiyyət prosesində ictimai-əxlaqi münasibətlərin normativ əsaslarını mənimsəyir, bu normaları davranışlarında tətbiq edərək öz sosial rollarını müəyyənləşdirirlər. Ünsiyyət fəaliyyətinin əsas obyektini həmyaşıdlar təşkil edir, bu isə yeniyetmənin fərdi inkişafında həm müsbət, həm də mənfi təsirlərə yol açır.

Bu dövrdə həmyaşıdlarla ünsiyyət vasitəsilə yeniyetmələr sosial təcrübə əldə edir, cəmiyyətin qəbul etdiyi əxlaqi və mədəni dəyərlərə yiyələnir və öz sosial kimliklərini formalaşdırırlar. Ünsiyyət prosesinin çoxşaxəli xarakteri fərdin qrup daxilindəki mövqeyini müəyyənləşdirmək, həmçinin liderlik və ya ardıcıllıq kimi sosial rolları mənimsəmək üçün vacibdir. Bu baxımdan, yeniyetməlik dövründə ünsiyyət fəaliyyətinin struktur və məzmunu, şəxsiyyətin inkişaf dinamikasına mühüm təsir göstərən amillərdən biri kimi qəbul edilir.

Yaş mərhələləri dəyişdikcə uşaqlar müəyyən siniflərə keçirlər. Ümumilikdə yeniyetməlik yaş dövrü ibtidai siniflərdən yuxarı siniflərə keçdiyi dövrə təsadüf edir. Buna görə də kiçik məktəblidən fərqli olaraq yeniyetmədə özünə, öz şəxsi həyatına, şəxsiyyətinin xüsusiyyətlərinə maraq yarandıqda, özünüqiymətləndirmə tələbatı, özünü başqaları ilə müqayisə etmə kimi bir sıra xüsusiyyətlər büruzə verməyə başlayır. Bununla da yeniyetmə özü üçün öz “mən”ini bir növ kəşf edir. Yenuyetməlik dövründə mənlik şüurunun formalaşmağa başlaması və sonrakı inkişafı bütün psixi həyatına təsirini göstərir. Bu dövrdə yeniyetmənin mənlik şüurunun formalaşmağa başlaması onun öz davranışını, mənəvi keyfiyyətlərini daha inkişaf etmiş formada üzə çıxarır. Başlanğıc dövrlərdə mənlik şüurunun formalaşması ətrafdakı insanların fikirləriylə daha sıx bağlı olur. Bu tip araşdırmaların nəticəsində qeyd etmişdilər ki, yaş artdıqca yeniyetmə özünün şəxsiyyətini daha aydın formada qavrayır və hansı formada inkişaf etdirəcəyiylə bağlı müxtəlif fikirlər formalaşır.

Yeniyetmə yaş dövrünün bir digər xüsusiyyəti də aparıcı fəaliyyətinin dəyişməsidir. Bu dövrdə aparıcı fəaliyyət təlim fəaliyyətidir. Yeniyetmələr bu fəaliyyət növünə uyğunlaşarkən bir çox çətinliklərə məruz qalırlar. Müəllimlər onlara yeni tələblər qoyurlar.

Yeniyetmələrin fənnlərə qarşı münasibətləri, emosional faktorlarla formalaşır. Onlar, öyrənmə prosesi zamanı müsbət və mənfi emosiyalar yaşayırlar.

Müsbət emosiyalar**:** Müəllimlərin dəstəyi, dərslərin maraqlı və interaktiv olması, müsbət nəticələr, yeniyetmələrdə özünə inam hissini artırır. Bu cür emosiyalar, fənnə qarşı motivasiyanı yüksəldir və öyrənmə prosesini daha təsirli edir.

Mənfi emosiyalar**:** Dərslərin çətinliyi, müəllimlərlə münaqişələr və ya aşağı qiymətlər, yeniyetmələrdə stress, narahatlıq və mənfi emosiyalara səbəb ola bilər. Bu, fənnlərə qarşı ümumi mənfi münasibət formalaşdırır və akademik performansı azaldır.

Yeniyetmələr onlara fərqli formalarda yanaşan müəllimləri ya sevir, ya da nifrət hissi bəsləyirlər. Bu da onların təlimə olan maraqlarına müxtəlif formada təsir edir. Onlar hətta bəzi fənləri “lazımlı” və yaxud “lazımsız” olaraq kateqoriyalara bölürlər [3, s. 477].

Yeniyetmələrin fənn seçimi, onların maraqları, bacarıqları və gələcək planları ilə bağlıdır.

Onlar maraqlandıqları fənnləri daha asan öyrənirlər. Məsələn, incəsənət və ya idmanla maraqlanan bir gənc, bu fənnlərə qarşı daha müsbət münasibət göstərə bilər. Bu, onların bu fənnlərdə daha yaxşı nəticələr əldə etməsinə səbəb olur.

Yeniyetmələrin gələcək karyera hədəfləri, fənnlərə olan münasibətlərinə təsir edir. Gələcəkdə həkim, mühəndis, müəllim və ya sənətçi olmaq istəyən gənclər, müvafiq fənnlərə daha çox maraq göstərirlər. Bu, onlara öyrənmə motivasiyası verir.

Bu dövrdə onlara həm valideynlərin, həm də müəllimlərin dəstəyi çox vacib məsələlərdəndir. Həmin yeniyetmələrə bəzi hallarda valideynlər düzgün davranmırlar. Onların istəkləri və qabiliyyətlərini göz ardı edirlər. Bununla da onlarda ruh düşkünlüyü, həvəssizlik, daha çox özünə qapanma, ailədən uzaqlaşma halları baş verir.

Tədqiqatların nəticəsində bunu da qeyd etmək olar ki, təlim fəaliyyətinin təsiri fonunda yeniyetmələrin idrak proseslərində bir sıra dəyişikliklər baş verir. İdrak fəaliyyətlərinin fərqli tərəflərini öyrənmək üçün təlim fəaliyyətinin əhəmiyyəti olduqca vacibdir.

Yeniyetmələrin fənnlərə qarşı münasibətləri, idrak prosesləri ilə sıx bağlıdır. Bilik qavrayışı, yaddaş, düşüncə və motivasiya kimi idrak prosesləri, gənclərin fənnlərə olan müsbət və ya mənfi münasibətlərini formalaşdırır. Müəllimlərin, valideynlərin və cəmiyyətin dəstəyi, bu proseslərin müsbət yöndə inkişafını təmin edir. Yeniyetmələrin ehtiyaclarını anlamaq, onlara dəstək olmaq və interaktiv, maraqlı bir öyrənmə mühiti yaratmaq, fənnlərə olan münasibətlərini müsbət yöndə inkişaf etdirmək üçün vacibdir. Bu, yalnız akademik uğurlarını deyil, eyni zamanda onların psixoloji sağlamlıqlarını və gələcək inkişaflarını da gücləndirir.

İdrak fəaliyyətlərinindən biri olan qavrayışa təlim fəaliyyətinin yeniyetmələrdə əsaslı təsir göstərdiyi və onun inkişafını sürətləndirdiyi bir çox alimlər tərəfindən təsdiqlənmişdir. Bu dövrdə şagirdlərin qavrayışı geniş əhatəli olur. Sonda belə nəticəyə gəlinir ki, onların qavrayışı ən çox maraqlandıqları cisim və hadisələrlə əlaqəli olur. Yeniyetmələrdə qavrayışın digər növləri də inkişaf edir [4, s.56].

Bundan əlavə yeniyetməlik dövründə hafizənin məntiqi formasının inkişafı da özünəməxsus formada inkişaf edir Qısa və uzun müddətli hafizə, hafizə strategiyaları, emosional vəziyyət və sosial mühit, gənclərin fənnlərə olan müsbət və ya mənfi münasibətlərini formalaşdırır. Yeniyetmələrin hafizəsini gücləndirmək, onların fənnlərə olan maraqlarını artırır və akademik uğurlarını yüksəldir. Müəllimlərin, valideynlərin və cəmiyyətin dəstəyi, bu proseslərin müsbət yöndə inkişafını təmin edir. Yeniyetmələrin ehtiyaclarını anlamaq, onlara dəstək olmaq və aktiv, interaktiv bir öyrənmə mühiti yaratmaq, fənnlərə olan münasibətlərini müsbət yöndə inkişaf etdirmək üçün vacibdir

Yeniyetmələrdə diqqətin inkişaf forması, onların psixoloji və akademik inkişafında əhəmiyyətli rol oynayır. Diqqət tipinin, amillərinin və inkişaf strategiyalarının anlaşılması, yeniyetmələrin daha effektiv öyrənmə və sosial qarşılıqlı əlaqələrini təmin edir. Müəllimlər, valideynlər və cəmiyyət, yeniyetmələrin diqqət inkişafını dəstəkləmək üçün müsbət bir mühit yaratmaqla, onların potensialını artırmalıdır. Diqqətin inkişafı, yalnız akademik müvəffəqiyyət üçün deyil, eyni zamanda şəxsi və sosial bacarıqların formalaşmasında da vacibdir.

Bununla yanaşı yeniyetmələrdə sabit ixtiyari diqqət inkişaf etməyə başlayır. Diqqətin həcmində, davamlılığında, paylanmasında əvvəlki dövrlərə nisbətən artış olur.

Yeniyetməlik dövründə təxəyyülün inkişafında xeyli irəliləyiş baş verir. Gənclərin təxəyyülünü stimullaşdırmaq üçün müsbət bir mühit yaratmaq, interaktiv təhsil metodlarından istifadə etmək və yaradıcı fəaliyyətləri təşviq etmək vacibdir. Bu, onların şəxsi və akademik həyatında daha müvəffəqiyyətli olmalarına kömək edəcək.

Yeniyetməlik dövründə təfəkkürün inkişafında fundamental dəyişikliklər müşahidə edilir. Bu mərhələdə təfəkkür daha ümumiləşmiş, sistemli və mücərrəd xarakter alır. Kiçik məktəb yaşlı uşaqlar əsasən konkret obyektləri müqayisə edir və məişət təfəkkürünə əsaslanırlar. Yeniyetmələr isə elmi anlayışları mənimsəyir və ümumi hökmlərlə düşünməyə üstünlük verirlər. Onların təfəkkürü dərinləşir və nəzəri səviyyədə fəaliyyət göstərir. Mücərrəd təfəkkür yeniyetməlik dövründə intensiv inkişaf edir və idrak fəaliyyətinin əsasını təşkil edir.

Bir çox dəyişilmələrdən əlavə, yeniyetmələrin idrak fəaliyyətlərində də yeniliklər, keyfiyyət baxımından artış özünü göstərir. Yeniyetmələr bu dövrdə yeniliyə həvəs göstərirlər bu da onların yalnız şəxsi həyatında yox, həm də təlim fəaliyyətinin yenidən formalaşmasında rol oynayır.

Məqaləmdə yeniyetmələrin psixoloji xüsusiyyətləri haqqında bunu da qeyd etmək istərdim ki, onlar bu dövrdə təkliyi daha çox sevirlər. Onların "mən"in formalaşması bu dövrə təsadüf edir.

Yeniyetmələrin valideynlərlə münasibətləri, onların emosional, sosial və psixoloji inkişafında əsas rol oynayır. Bu münasibətlər, tərbiyə üsulları, sosial mühit və emosional vəziyyətlə sıx bağlıdır. Açıq kommunikasiya, empatiya və ortaq fəaliyyətlər, yeniyetmələr və valideynlər arasındakı münasibətləri gücləndirir. Valideynlərin dəstəyi və anlayışı, yeniyetmələrin sağlam inkişafına kömək edir və onların müstəqil insan olaraq formalaşmalarını asanlaşdırır [7, s. 23].

Bunu da qeyd edim ki, ailədə sevgi və diqqət çatışmazlığı yaşayan uşaqlar fərdi dəyər hissini təsdiqləmək üçün xarici mühitə yönəlirlər. Yeniyetməlik dövründə ailədaxili münasibətlərin müsbət və dəstəkləyici olması uşağın sağlam psixososial inkişafı üçün vacibdir. Bu mərhələdə valideynlər həm ailə daxilində sağlam ünsiyyət qurmağa, həm də övladlarının dost çevrəsini nəzarətdə saxlamağa diqqət yetirməlidirlər. Yeniyetmələr bu yaşda xarici təsirlərə qarşı daha həssas olur və sosial mühitin təzyiqlərinə daha çox məruz qalırlar. Valideynlərin bu mövzuda biganə davranışı yeniyetmələri zərərli təsirlərə açıq vəziyyətə gətirə bilər..

Bu dövrü digər bir formada izah etmək olar ki, onlar özlərini böyüklərlə eyni tərəziyə qoyaraq hərkət edirlər. Bu da onlarda bəzi aqressivliklərə gətirib çıxarır.

Yeniyetmə nəinki bu və ya digər məhdudiyyətə öz etirazını bildirir, eyni zamanda, müxtəlif məsələlərin həllində öz müstəqilliyini bərqərar etməyə çalışır; Nə vaxt, harada, nə qədər və kiminlə gəzmək, dərsləri nə vaxt hazırlamaq, nə vaxt oxumaq, saçını necə daramaq, nə geyinmək, necə hərəkət etmək və s [6, s. 153].

Yuxarda qeyd etdiyim kimi uşaqların bu dövrü başa vurması onlarda bir çox hisslərin meydana gəlməsinə gətirib çıxarır.

Yaşlılıq hissinin yaranması, ilk növbədə, yeniyetmənin fiziki inkişafı və bu inkişafın müşahidə edilən dəyişiklikləri ilə əlaqələndirilir. Yeniyetmənin xarici görünüşü böyüklərə bənzəməyə başlayır, boyu uzanır, fiziki gücü artır. Bu dəyişikliklər nəticəsində yeniyetmə özünü böyüklərlə müqayisə edir və onlarla eyniləşmə meyli inkişaf edir. Bu proses, yalnız fizioloji deyil, həm də sosial xarakter daşıyır. Yeniyetmənin böyüklərlə birgə fəaliyyət göstərməsi, onların etimadını qazanması və sosial münasibətlərdə daha böyük məsuliyyət daşıması, onun sosial yaşlılıq statusunu formalaşdırır. Bununla yanaşı, yeniyetməlik dövründə yaşlılıq hissi fərdin özünüdərkinin və sosial rollara adaptasiyasının mühüm bir göstəricisi kimi çıxış edir.

Ümumilikdə məqalədə bununla bağlı Hüseyn Xəlilovun bir neçə fikrini əsaslandrımaq istəyirəm o, münasibətlər haqqında bunları qeyd etmişdir. Yeniyetməlik dövründə valideynlərlə münasibətlərdə gərginliklər müşahidə olunur. Öz hüquq və vəzifələrinin məhdudlaşdırıldığını hiss edən yeniyetmələr, valideynlərin qadağa və tələblərinə qarşı müqavimət göstərir, bu zaman hiyləgərlik və yalan danışma kimi davranışlar ortaya çıxır. Bu cür davranışlar əvvəllər təzyiqə qarşı reaksiyalar kimi başlasa da, zamanla xarakter xüsusiyyətlərinə çevrilir. Yeniyetmə, valideynlərin ədalətsizliyinə dözə bilməyərək, öz daxili dünyasına çəkilir və tənha hiss edir. O, valideynlərin onu başa düşə bilmədiyini düşünərək, onların tələblərini qəbul etmədən dərhal rədd edir. Bu vəziyyət valideynlər üçün çətinlik yaradır, çünki onların uşaqlarının davranışlarını idarə etməkdə çətinliklərlə qarşılaşırlar.

İkinci halda, yeniyetmə, valideynlər üzərində təzyiq yaradaraq əvvəl icazə verilən məhdudiyyətlərə qarşı güzəştlər əldə edir. Lakin valideynlər bu dəyişikliklərdə ardıcıl və tutarlı mövqe sərgiləmir. Nəticədə, ziddiyyətlərin sayı azalır, lakin hər dəfə yeniyetmə əvvəlki güzəştlərdən faydalanaraq yeni tələblər irəli sürür. Bu vəziyyət, həm yeniyetmələr, həm də valideynlər üçün narahatlıq doğurur, çünki hər iki tərəf "nəyi icazə verilməlidir" və "nəyi qadağan etmək lazımdır" məsələsində aydın qərar verməkdə çətinlik yaşayır.

Üçüncü halda, zamanla valideynlər yeniyetməni uşaq kimi deyil, müstəqil bir fərd olaraq qəbul edərək, davranışlarını ona uyğun tənzimləyirlər. Bu dəyişikliklər çətinlikləri azaldır və nəticədə aradan qaldırır. Yeniyetmənin müstəqillik arzusunun düzgün yönləndirilməsi və ziddiyyətlərin qarşısının alınması üçün valideynlər və müəllimlər onun şəxsiyyətinə, statusuna və ləyaqətinə hörmətlə yanaşmalıdırlar. Yeniyetməlik dövründə əxlaqi və sosial-əxlaqi əsasların

formalaşdığı nəzərə alınaraq, bütün ziddiyyətlər qarşılıqlı razılaşma və etimadla həll olunmalıdır.

Bədii, tarixi əsərlərdən və yaşlı nəslin xatirələrindən məlum olur ki, rus-alman (1941-1945) müharibəsi illərində uşaqlar həddən çox tez "yaşlılaşmışlar". Çünki tələb olunan yaşdan çox tez zavod və kolxozlarda işləməli, evdə anaya yaxından kömək etməli olurdular. Deməli, uşaq yaşlılarla çiyin-çiyinə çalışdıqda o, nəinki obyektiv cəhətdən, həm də psixoloji baxımdan özünün yaşlaşdığını hiss edir [2, s. 309].

Məqalədə bunu da qeyd edim ki, yeniyetməlik dövrü, həyatın ən əhəmiyyətli transformasiya mərhələlərindən biridir. Bu dövrdə fiziki dəyişikliklərlə yanaşı, psixoloji inkişaf da baş verir. Yeniyetmənin özünüqiymətləndirməsi və xarakteri bu dəyişikliklərdə əhəmiyyətli rol oynayır. Yaşlılıq hissiylə bağlı olaraq böyüklərlə münaqişələr meydana gəlir. Bu dövrdə öz "mən"ini dərk etmənin eqoidentikliyin formalaşması baş verir. Yeniyetməlik dövrünün əsas hissələrindən biri olan seksual həvəs və marağın yaranması halı özünü büruzə verir. Davranışında qeyri adaptiv forma və daha çox xarakterdə aksentuasiya yaranır. Digər dəyişikliklərdən biri də qeyri-sabit emosional sfera, emosiya və əhvalların idarə oluna bilməməsidir.

Texniki avadanlıqların inkişafı, sosial şəbəkələrin olmağı və digər təbii amillərin olması yeniyetmələrə həm fiziki, həm də psixoloji tərəfdən çox təsir edir. Bütün bunların olması indiki dövrümüzdə uşaqlarda yeniyetməlik dövrünün daha tez başlamağına səbəb olur. Onlarda olan "yaşlılıq" hissinin daha qabarıq yaşamağına səbəb olur. Bu dövrdə fiziki görünüş olaraq boyları, çəkilərin kiçik olsa da ancaq bu dövr tez başlamış olur. Bəzi araşdırmalar yaş həddinin 8-9 yaş dövrlərinə qədər düşdüyünü göstərir.

Yeniyetmələrə bu dövrü daha sağlam şəkildə başa vurmaq üçün həm özlərini, həm də valideynlərini profilaktik maarifləndirmə işləri aparılır. Bunları məktəblərdə və KİV vasitəsilə apardıqda müsbət irəliləyişləri görmək olur.

**Nəticə**

Beləliklə məlum oldu ki, yeniyetməlik yaş dövrü onlar üçün ən əhəmiyyətli dövrü əhatə edir.Yeniyetməlik dövrü, insanın sosial və psixoloji inkişafında kritik bir mərhələdir. Bu dövrdə baş verən dəyişikliklərin hamısı onların həm şəxsi, həm də sosial həyatında bir çox dəyişikliklərə gətirib çıxarır. Tədqiqat aparan psixoloqların gəldiyi nəticələrə əsasən yeniyetməlik yaş dövrünü ən çətin keçid yaş dövrü kimi adlandırmaq olar. Yeniyetmələr, bu müddətdə emosional dalğalanmalar, riskli davranışlar və kimlik axtarışları ilə üzləşirlər. Bu vəziyyət, onların özlərini tanıma, başqaları ilə münasibət qurma və gələcəkdəki həyatlarına hazırlıq baxımından mühüm əhəmiyyət daşıyır Bu məqalədə də onu qeyd etmək lazımdır ki, bu dövrdə təhlükəsiz bir mühitin təmin edilməsi, yeniyetmələrin sağlıqlı bir gələcək üçün hazırlıqlı olmaları üçün əhəmiyyətlidir. Yeniyetmələrin özlərini ifadə etmələrinə, yeni bacarıqlar əldə etmələrinə və sosial şəbəkələrdə iştirak etmələrinə şərait yaradılması, onların daha güclü, müstəqil və yaradıcı fərdlər olmalarına yardım edəcəkdir. Bu yolda, cəmiyyətin bütün üzvləri, yeniyetmələrin həyatlarında müsbət bir dəyişiklik yaratmaq üçün çalışmalıdırlar. Yalnız bu şəkildə, gənclərin sağlam bir şəxsiyyət kimi formalaşması mümkün olacaqdır. Valideynlər, müəllimlər və cəmiyyət, yeniyetmələrin bu mürəkkəb dövrdə dəstəklənməsi üçün anlayışlı və yardımsevər olmalıdırlar. Yeniyetmələri bu dövrlə əlaqəli profilaktik maarifləndirmələr keçirməklə daha az çətinliklə başa vurmalarını təmin edə bilərik.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. 2-ci nəşri. – Bakı: 2002.
2. Qədirov Ə.Ə. Yaş psixologiyası. – Bakı, 2002, s.386.
3. Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə. Psixologiya. Bakı-2007
4. Ağayev Ş.S. Uşaq psixologiyası məsələlərinə dair. Bakı: APİ-nin nəşri, Bakı-1996
5. Çələbiyev N.Z. Uşaq psixologiyası, Bakı, 2002
6. Hüseyn Xəlilov Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Qafqaz Nəşriyyatı. Bakı-2010
7. Батюта М.Б. Возрастная психология. М.: Логос, 2013.
8. Болотова А.К. Психология развития и возрастная психология: Учебное пособие. М.: ИД ГУ ВШЭ, 2012, 526 с.

**Agila Samitovna İSMAYİLOVA**
Master's student of the Department of Psychology and Social Work, Western Caspian University
E-mail: agilaismayilova@gmail.com

## SOCIAL AND PSYCHOLOGICAL CHARACTERISTICS OF THE CHARACTERISTICS OF ADOLESCENCE

**Summary**

A person's life consists of certain age periods. One of these periods is adolescence. Adolescence has its own characteristics. Each person experiences this period in their own way. In this article, we will consider what distinguishes adolescence, how it manifests itself and how it affects the formation of a person's personality. We will also touch on the behavioral characteristics of adolescence and the influence of the environment on these characteristics. It should be noted that adolescence is the most difficult and painful period in a person's life. This age is a period of human life that is often studied by psychologists. Deep knowledge of both physical and psychological changes in adolescents, obtained during these studies, can help adolescents survive this period more easily and painlessly.

In this article, we will consider the socio-psychological characteristics of adolescence.

**Key words:** adolescence, independence, crisis, puberty.

**Агила Самитовна ИСМАИЛОВА**
Магистрант кафедры Психологии и Социальной работы Западно-Каспийского университета
E-mail: agilaismayilova@gmail.com

## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА ОСОБЕННОСТЕЙ ПОДРОСТКОВОГО ВОЗРАСТА

**Резюме**

Человеческая жизнь состоит из определённых возрастных периодов. Одним из этих периодов является подростковый возраст. Подростковый возраст отличается своими особенностями. Каждый человек переживает этот период своеобразно. В этой статье мы обсудим, чем отличается подростковый возраст, как проявляется и как влияет на формирование человеческой личности. А также затронем поведенческие особенности подросткового возраста и влияние окружающей среды на эти особенности. Следует отметить, что подростковый возраст является самым сложным и болезненным периодом в жизни человека. Этот возраст – часто изучаемый психологами период жизни человека. Глубокое знание и физических, и психологических изменений подростков, полученное в ходе этих исследований, может помочь подросткам пережить этот период более легко и безболезненно.

В этой статье мы рассмотрим социально-психологические особенности подросткового возраста.

**Ключевые слова**: подростковый возраст, самостоятельность, кризис, половая зрелость.

**Daxil olub:** 25.12.2024